**MƏDƏNİYYƏT DÜNYASI**
Elmi-nəzəri məcmuə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
XXXVII buraxılış, Bakı, 2019

**МИР КУЛЬТУРЫ**
Научно-теоретический сборник
Азербайджанский Государственный Университет Культуры и Искусств,
XXXVIIвыпуск, Баку, 2019

**THE WORLD OF CULTURE**
Scientific-theoretical bulletin
Azerbaijan State University of Culture and Art, XXXVIIedition, Baku, 2019

**UOT 008:316**

**İlahə Sadıqova**
**Azərbaycan Dövlət Mədəniyyət və**
**İncəsənət Universitetinin dissertantı**
**AZ-1065, Bakı şəhəri, İnşaatçılar prospekti 39**
**E-mail:**kreteida@mail.ru

# CÜMHURİYYƏT DÖVRÜNDƏ QAÇQINLAR MƏSƏLƏSİ

**Xülasə:** XIX əsrin əvvəllərindən başlayaraq çar Rusiyası tərəfindən Azərbaycana ermənilərin köçürülməsi hadisəsi həyata keçirilirdi. Bu köçürmə nəticəsində ermənilər yerli əhali olan azərbaycanlılara qarşı dəfələrlə kütləvi qırğınlar törətmişlər, onları doğma ev-eşiklərindən didərgin salmışlar.

**Açar sözlər:** AXC, Azərbaycan, cümhuriyyət, parlament, qurultay, qanun, seçki, qaçqın, xeyriyyə, yardım Zəngəzur, İrəvan

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlar məsələsi XX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı dəfələrlə törətdikləri soyqırımlar nəticəsində yaranmış və beynəlxalq səciyyə daşıyan bir problemdir. Bu problem dövrümüzdə də olduqca aktualdır. Belə ki, hazırda Azərbaycan torpaqlarının 20%-i ermənilərin işğalı altındadır.

Dünya idarəetmə sistemində həm dövlət, həm də xalq üçün ən yaxşı idarəetmə sistemlərindən biri də cümhuriyyət sistemidir. Cümhuriyyətin rejimi demokratiyadır. Demokratiya xalqın azad şəkildə, sərbəst seçim ilə öz hakimiyyətində təmsil olunmasıdır. Burada azadlıq hüququ demokratiya hüququnun tərkibini təşkil edir. Hakimiyyət xalqın azad seçimi ilə yaranmış iradəli tərəf olmaqla, xalqın azadlıq hüququnu müdafiə edən tərəf və mexanizm rolunu da ifadə edir.

Bu məsələlərdən irəli gələn tələbləri müzakirə etmək üçün 1917-ci ilin may ayında Moskvada Rusiya müsəlmanlarının qurultayı (syezd) çağırılmışdır. Mayın 1-də isə

məclisin rəsmi açılışı baş tutmuş, Rusiya müsəlman ictimaiyyətinin hamısı gözləniləndən 3 dəfə çox, 900 nəfərlə bu məclisə toplaşmışdır. Qurultay ərazi muxtariyyəti tərəfdarlarının qalibiyyəti ilə nəticələnmişdi.

Qurultayda ərazi muxtariyyəti ideyası qalib çıxdıqdan sonra əsas iş əhalini Müəssislər Məclisinə seçkilərə və öz milli təşkilatlarına səs verməyə səfərbər etmək idi. Bu ərəfədə bolşeviklər hakimiyyətə gəlir, lakin Müəssisələr Məclisi seçkilərinə qarışmırlar. Seçkilər zamanı Müəssisələr Məclisi qalib gəldi, bolşeviklərin seçkinin nəticəsini tanımaqdan imtina etmək qərarları Müəssislər Məclisinə Cənubi Qafqazdan seçilmiş deputatları tamamilə bolşeviklərlə əməkdaşlıqdan imtinaya vadar etdi və onlar Tiflisdə Zaqafqaziya Seymini yaratdılar.

1918-ci ilin aprelində isə bu Seym rəsmi şəkildə Rusiya ilə federasiya ideyasından imtina edib, müstəqil Cənubi Qafqaz respublikasının yarandığını bəyan etdi. May ayında isə Cənubi Qafqaz Respublikasının parçalanması üç yeni, o cümlədən Azərbaycan Cümhuriyyətinin elan edilməsi ilə nəticələndi.

2019-cu il may ayının 28-də Cümhuriyyətin 101 ili tamam oldu. Bu tarixi gün Azərbaycan xalqının, dövlətçiliyinin ən əlamətdar günüdür. AXC Parlamentinin fəaliyyəti dövründə müzakirəyə 270-dən çox qanun layihəsi çıxarılıb, onlardan təxminən 230-u qəbul edilib. Parlamentin qəbul etdiyi bütün qanun və qərarlar müstəqil dövlətin ilk qanun və qərarları olduğu üçün böyük əhəmiyyətə malik idilər.

Dövlətin sosial siyasətini reallaşdırmaq üçün aşağıdakı əsas göstəricilərə nail olunması nəzərdə tutulmuşdur: ümumi daxili məhsulda istehlak fondunun payının artırılması, əhalinin hər nəfərinə görə istehlak fondunun, ümumdaxili məhsulda milli gəlirin və məşğulluq səviyyəsinin artırılması, əmək şəraitinin yaxşılaşdırılması; təhsil, səhiyyə, mənzil və kommunal təminatı səviyyəsinin yüksəldilməsi. Lakin mürəkkəb beynəlxalq və daxili vəziyyət, iqtisadi çətinliklər, yolxucu xəstəliklər, keçmiş İrəvan quberniyası ərazisində ermənilər tərəfindən soyqırımına məruz qalan 150 mindən çox türk əhalinin öz tarixi vətənlərindən didərgin düşüb Cümhuriyyətə pənah gətirməsi, əhalinin çoxluğunu təşkil edən kəndlilərin həyat şəraitini yaxşılaşdırmağın əsas amili olan torpaq məsələsinin həll olunmaması və s. sosial vəziyyəti xeyli çətinləşdirirdi. AXC parlamenti və hökuməti sosial gərginliyi aradan qaldırmaq məqsədilə təxirəsalınmaz tədbirlər həyata keçirirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə qaçqınlar məsələsi XX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı dəfələrlə törətdikləri soyqırımlar nəticəsində yaranmış və beynəlxalq səciyyə daşıyan bir problemdir. Bu problem dövrümüzdə də olduqca aktualdır. Belə ki, hazırda Azərbaycan torpaqlarının 20%-i ermənilərin işğalı altındadır.

XIX əsrin əvvəllərindən başlayaraq, çar Rusiyası tərəfindən Azərbaycana ermənilərin köçürülməsi hadisəsi həyata keçirilirdi. Bu köçürmə nəticəsində ermənilər yerli əhali olan azərbaycanlılara qarşı dəfələrlə kütləvi qırğınlar törətmişlər, onları doğma ev-eşiklərindən didərgin salmışlar. Bu problemlərdən biri də 1917-20-ci illərdə baş vermişdir. Bu dövrdə yüzminlərlə azərbaycanlı Qərbi Azərbaycan, Naxçıvan, Qarabağ və digər bölgələrdən didərgin salınıblar. 1917-18-ci illərdə təkcə Yeni Bayazid, Üçmüədzin və İrəvan qəzalarından olan qaçqınların sayı 200 minə çatmış, İrəvan quberniyasında azərbaycanlılar yaşayan 211 kənd viran edilmişdir. Ümumiyyətlə, erməni qəddarlığı və təcavüzü nəticəsində 1918-20-ci illərdə İrəvan, Zəngəzur, Şuşa və Şamaxıdan 300 mindən çox azərbaycanlı qaçqın düşmüşdür. 1919-cu il oktyabrın 1-nə kimi

Azərbaycanda təkcə İrəvan quberniyasından 5848 ailə, yaxud 30741 nəfər qaçqın var idi. (1, s.96)

Qarabağ bölgəsində 1918-ci il və 1919-cu ilin əvvəllərində ermənilərin törətdikləri soyqırımlarına daha çox məruz qalan qəzalardan biri də Cəbrayıl qəzası idi. Qəza 12 azərbaycanlı və 3 erməni kənd icmasından ibarət idi. 1918-ci il dekabrın ilk günlərindən ermənilər qəzanın azərbaycanlı əhalisinə qarşı silahlı təxribatlara başladılar. Ermənilər, əvvəlcə, tək-tək qətllər törədir, basqın edərək, azərbaycanlılara məxsus mal-heyvanı sürüb aparırdılar. Getdikcə daha da mütəşəkkilləşən erməni quldur dəstələri azərbaycanlı kəndlərinə açıq silahlı hücumlar etməyə başlayırlar.

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qaçqınlara kömək etmək üçün dərhal ciddi səylər göstərmiş və bu problemin həlli üçün Xudadat bəy Rəfıbəylinin başçılığı ilə Səhiyyə və Himayədarlıq Nazirliyi yaratmışdı. Milli Hökumət paytaxtı Bakıya köçürdükdən sonra qaçqınlar məsələsi ilə daha da ciddi məşğul olmağa imkan qazandı. Problemin dərinliyini və ciddiliyini nəzərə alan hökumət 1918-ci ilin oktyabrında Səhiyyə və Himayədarlıq Nazirliyini iki müstəqil nazirliyə çevirdi. Qaçqınlar problemi ilə Himayədarlıq Nazirliyi məşğul olmağa başladı. Müharibə, hərc-mərclik, xüsusilə 1918-ci ildə güclənən erməni təcavüzü və soyqırımları nəticəsində ölkədə evsiz-eşiksiz qalan, tamamilə müflisləşən və sərgərdan vəziyyətə düşən on minlərlə adam dövlətin onlara göstərdiyi qayğı və yardım vasitəsilə yaşayırdılar. Hökumət onları maddi yardımla, müvəqqəti yaşayış yerləri ilə, həmçinin, işlə təmin etmək, yetim və valideynləri tərəfindən atılmış uşaqları xilas etmək məqsədilə daimi idarələr yaratmışdı.

Qaçqınlar problemi ilə bağlı hökumətin qarşısında bir çox vəzifələr dururdu. Belə ki, hökumət qaçqınları lazımi ərzaq məhsulları ilə təmin edir, təsərrüfatlarının təşkili üçün faizsiz borc verir, əkin üçün toxum, iş heyvanları verir. Eyni zamanda, kimsəsiz uşaqlar üçün uşaq himayə evlərinin açılması, əhalinin yoxsul təbəqəsi üçün müvəqqəti yaşayış yerlərinin, qidalanma məntəqələrinin və ucuz yeməkxanaların, xeyriyyə cəmiyyətlərinin, qidalanma məntəqələrinin təşkili istiqamətində də zəruri tədbirlər həyata keçirmişdir. Bakıdan kənarda yerləşdirilən qaçqınlara kömək məqsədilə yerli ictimai qüvvələrdən, qaçqın və yerli əhalinin nümayəndələrindən ibarət qaçqın komissiyaları təşkil edilirdi. Bu komissiyalar qaçqınların işə düzəlməsi, yerləşdirilməsi yollarını axtarırdı.

1919-cu ilin ortalarından AXC hökuməti iqtisadi çətinliklər üzündən Bakıdan kənarda yaşayan qaçqınlara maddi yardım göstərə bilmirdi. Əvəzində, əhaliyə ərzaqla yardım göstərilirdi: adam başına orta hesabla 20-25 funt buğda və arpa, çəltik, sabun, duz, parça, paltar və s.

Qaçqınlarla yanaşı, Şamaxı və Lənkəran qəzalarında daşnak-bolşevik qüvvələrinin, ağ qvardiyaçıların vəhşiliyinə məruz qalaraq müflisləşmiş, qaçqınlar qədər müəyyən köməyə ehtiyacı olan minlərlə insan vardır ki, 1919-cu ilin aprelindən hökumət onlara da məhsul yığımınadək, qaçqınlarla bərabər ərzaq yardımı edirdi.

1919-cu ildə Şuşa, Cəbrayıl, Cavanşir, Ağdam, Füzuli və Bərdədə məskunlaşan 20 minədək qaçqına yardım edilmişdi. Nuxa dairəsi və Gəncə qəzasında yerləşdirilən qaçqınlara 2 milyon manata qədər yardım edilmişdi. (1, s.97)

1918-ci ilin oktyabr ayında İrəvan quberniyasının Üçmüədzin qəzasından Qazax qəzasına qaçqınların kütləvi axını başladı və 1919-cu il yanvarın əvvəllərində Zəngəzurda baş verən qırğınlar nəticəsində bu qəzanın dağlıq hissəsinin 40 minədək sakini Qarabağın Cəbrayıl, Şuşa, Cavanşir qəzalarına və respublikanın digər ərazilərinə qaçmağa məcbur oldular. Bu səbəbdən, Azərbaycan hökuməti 1919-cu ilin aprel ayında

parlamentə Ermənistan ərazisində yaşayan türk əhaliyə yardım göstərilməsi ilə bağlı qanun layihəsi təqdim etmişdir. Parlament qanun layihəsinə baxdıqdan sonra vəsait ayrılması ilə bağlı qərar qəbul etmişdir. Yardım üçün ayrılmış 3 milyon vəsait hesabına İrəvana 15 vaqon taxıl, buğda və arpa göndərilmiş və əhalinin hər bir nəfərinə 10 funt olmaqla paylanılmışdır. Bundan əlavə, İrəvanda müsəlmanlar üçün müalicəxana, habelə 85 nəfərlik uşaq evi açılmışdır.

Azərbaycan hökuməti ilə yanaşı, xalq da qaçqınlara kömək edirdi. 1919-cu ildə Bakı şəhəri və mədən rayonlarında qaçqınlar üçün 308000 manat toplanmışdır. (1, s.96)

AXC hökuməti milliyyətindən asılı olmayaraq, bütün qaçqın və didərginlərə kömək edirdi. Belə ki, 1919-cu ildə yardım olaraq Müsəlman qadın xeyriyyə cəmiyyətinə 220 nəfərlik müsəlman uşaq sığınacağı üçün, Erməni Milli şurasına 217 nəfərlik 2 sığınacaq üçün, Rus xeyriyyə cəmiyyətinə 517 nəfərlik sığınacaq və əlillər evi üçün, Uşaq evi cəmiyyətinə 80 nəfərlik sığınacaq üçün, 9-cu Sahə Komitəsinə 30 nəfər yaşlı adam üçün, Yəhudi Milli Şurasına ucuz yeməkxana üçün, Yəhudi xeyriyyə cəmiyyətinə qocalar və əmlakı olmayanlar üçün sığınacağa görə 2114501 manat vəsait ayırmışdır. 1918-ci il mart qırğınları zamanı zərər çəkmiş şəxslərə də birdəfəlik pul yardımları göstərmişdir. Bunun üçün ayrılan pulların ümumi məbləği 300000 manatdan təşkil edirdi. (1, s.96)

Yardım göstərilməsi ilə bərabər, hökumət çalışırdı ki, qaçqınları öz doğma yurd-yuvalarına qaytarsın. Bununla bağlı bütün xərcləri də öz üzərinə götürmüşdü. Erməni və rus milli komitələrinin rəyinə əsasən, 5000 ermənini və 2500 rusu daimi yaşayış yerlərinə yola salmışdı. Bundan əlavə, 4000 müsəlman və 1000 nəfər digər millətlərin nümayəndələri də daimi yaşayış yerlərinə yola salınmışdı.

O dövrdə erməni daşnaqları rus qoşunlarının köməyi ilə Anadoluda, xüsusilə Qarsda, İğdırda və başqa ərazilərdə yerli türk əhalisinin evlərini dağıtmış, on minlərlə günahsız insanı yurd-yuvalarından didərgin salmışlar. Hökumət Himayədarlıq Nazirliyi Müsəlman Xeyriyyə cəmiyyətinin vasitəçiliyi ilə Bakıda məskunlaşanlara 7000 nəfərin gündəlik çörəklə təminatını öz üzərinə götürmüşdür. 1919-cu ilin noyabrından 1920-ci il yanvarın 1-dək olan dövrdə buna 562195 manat pul xərclənmişdir.

Hökumət parlamentdə keçirilən hər bir iclasda qaçqınlar məsələsini gündəmə gətirmiş və onlara xüsusi qayğını əsirgəməmişdir, lakin parlamentdə müzakirələr zamanı bəzi deputatlar var idi ki, yardımlara heç də birmənalı münasibət bildirmir, göstərilən yardımların formasına etiraz edirdilər. Məsələn, deputat A.Aşurov hökumətin qaçqınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində uzunmüddətli proqramın olmamasına etiraz edirdi. Parlamentin 14 iyun 1919-cu il tarixli iclasında deputatların əksəriyyəti qaçqınlara maddi yardımdan çox, onların işlə təmin olunmasını düzgün hesab edirdilər. Əlbəttə, deputatların haqlı tərəfləri də var idi. Belə ki, onların bəziləri hökumətdən pulların qaçqınlara necə çatdırılması ilə bağlı izahat istəyir, mənimsəmə hallarının qarşısını almağı tələb edirdilər, bəziləri isə əmək qabiliyyəti olanları işlə təmin etmək lazım olduğunu bildirirdilər. İclasda Suraxanı-Mərdəkan dəmir yolu xəttinin çəkilməsini və qaçqınların orada işlə təmin olunması təklif olundu.

Azərbaycan hökuməti qaçqınlara təkcə pulla deyil, ərzaqla da kömək edirdilər. Belə ki, 1920-ci il yanvar ayının 5-də parlamentdə qaçqınların 21 milyon manat dəyərində buğda ilə təchiz olunması haqqında qərar qəbul olunmuşdu. Ümumiyyətlə, 1919-cu ildə hökumət əhalinin yoxsul təbəqələrinə kömək üçün 3082000 manat maliyyə yardımı etmişdi. Eyni zamanda, milli münaqişələr zamanı yetim və kimsəsiz qalmış uşaqların himayəsinə də xüsusi diqqət yetirilirdi. Bu sahədə görülən mühüm işlərdən iri

də yerli xeyriyyə cəmiyyətlərinin maliyyə köməyi ilə valideyn himayəsindən məhrum olanlar üçün uşaq evlərinin təşkili, genişləndirilməsi və bu işə daim nəzarət edilməsi idi.

1918-ci ildə Mərkəzi Uşaq Evinin nəzdində kimsəsiz uşaqlara kömək etmək üçün xüsusi yardım bürosu yaradılmışdı. Büro üzərinə qoyulan vəzifələrin öhdəsindən təkbaşına gələ bilmədiyi üçün kömək almaq məqsədilə Himayədarlıq Nazirliyinə müraciət etmişdi. Nazirlik uşaq evindəki hər bir uşağa əvvəlcə ayda birdəfəlik 60 manat, sonra isə qaytarılmamaq şərti ilə 120 manat subsidiyaların ödənilməsi yolu ilə kömək ayırmışdı. Büro dağıldıqdan sonra isə nazirlik cəmiyyətlərə himayəyə götürülmüş hər bir uşaq evi üçün adambaşına ayda 200 manat subsidiya ödəyirdi. Bundan əlavə, cəmiyyətin bu və ya digər ehtiyacları üçün əlillər evi, gecəqondular və ucuz yeməkxanaların saxlanmasından ötrü də vəsait ayrılırdı.

O dövrdə qadın cəmiyyəti olan “Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti” - valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım etmək məqsədilə yaradılmış qeyri-hökumət xeyriyyəçilik qurumu fəaliyyət göstərirdi. Cəmiyyət xəstə və yaralı əsgərlərə, yetim və yoxsul uşaqlara yardım göstərir, tez-tez müxtəlif tədbirlər keçirirdi, yoxsul qızlar üçün peşə məktəbi açmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti məktəbin səmərəli işləməsi üçün cəmiyyətə 30 min manat vəsait ayırmışdı. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynayıb. 1920-ci il aprel işğalından sonra cəmiyyət fəaliyyətini dayandırıb. (2, 251-253)

Azərbaycan uzun illər bu hadisələr fonunda mənə-psixoloji sarsıntı keçirən əhalinin reabilitasiya edilməsi, yenidən cəmiyyətə yararlıp vətəndaş olaraq yetişdirilməsi uğrunda mücadilə aparmışdır. Qismən buna nail olsa da, Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra əsrin əvvəlində baş verən hadisələrdən daha ağırını yaşamış oldu. Qarabağ müharibəsində itirilmiş 20% torpaqlarımız, millətimizə qarşı törədilmiş soyqırımlar bunun göstəricisidir. Ən dəhşətlisi də odur ki, nəticə olaraq yenə də psixoloji-mənəvi sarsıntılara məruz qalmış, evsiz-eşiksiz insalar, valideyn və övladlarını itirən insanlar cəmiyyətçün itirilmiş kəsim oldu. Bu insanların bərpası və yenidən cəmiyyətə qaytarılması istiqamətində uzun illərdir dəstək göstərilsə də, hələ ki buna 100% nail ola bilməmişik. Düşünürəm ki, Azərbaycan torpaqlarının işğaldan azad olunacağı gün bu problem kökündən həll edilmiş olacaq.

## Ədəbiyyat:


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, 2005, 476 səh;
2. Azərbaycan Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, “Lider nəşriyyat”, 2004, 440 səh
3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafık hesabatlar), c.1-2, B., 1998;
4. Azərbaycan tarixi, 7 cilddə, c.5, B.,2001;
5. АзербайджанскаяДемократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998;
6. Əziz B., ADR-in qaçqınları yerləşdirmək sahəsində fəaliyyəti, "Tarix və onun problemləri", B., 2000, №3-4;

Илаха Садыгова

**Проблема беженцев в Азербайджанской Демократической Республики**

**Резюме**

С начала XIX века было осуществлено переселение армян на территорию Азербайджана. В результате этого переселения армяне неоднократно убивали азербайджанцев, проживающих на их родных землях, вытесняя их со своих родных земель. Проблема беженцев вАзербайджанской Демократической Республике была проблемой международного характера, возникшей в результате геноцида, совершенного армянами против азербайджанцев в начале двадцатого века. Эта проблема также актуальнаи и в наше время. Так как 20% Азербайджанских земель оккупированны армянами.

**Ключевые слова:** АДР, Азербайджан, республика, парламент, конгресс, закон, выборы, беженец, благотворительность, помощь Зангезур, Иреван

Ilaha Sadiqova

**Refugee problem in the Azerbaijan Democratic Republic**

**Summary**

From the beginning of the 19th century, the resettlement of Armenians to the territory of Azerbaijan was carried out. As a result of this resettlement, Armenians repeatedly killed Azerbaijanis living in their native lands, forcing them out of their native lands. The refugee problem in the Azerbaijan Democratic Republic was an international problem that arose as a result of the genocide committed by Armenians against Azerbaijanis in the early twentieth century. This problem is also relevant in our time. Since 20% of Azerbaijani lands are occupied by Armenians.

**Keywords:** ADR, Azerbaijan, republic, parliament, congress, law, elections, refugee, charity, assistance, Zangezur, Irevan

**Məqalənin redaksiyaya daxil olma tarixi: 10.04.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 17.04.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 24.05.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyeva**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**